# 15 İyun – Milli Qurtuluş Günü Azərbaycanın gələcəyinin xilası ilə əlamətdar oldu




Azərbaycanın müstəqillik tarixi bir tərəfdən qürurverici və şanlı, digər tərəfdən isə böyük sınaqlar və faciələrlə doludur. 15 İyun – Milli Qurtuluş Günü isə bu tarixdə dönüş nöqtəsi, xalqın öz taleyinə sahib çıxmasının və dövlətin məhv olmaq təhlükəsindən xilas olmasının simvoludur. Bu gün, əslində, təkcə siyasi liderin hakimiyyətə qayıdışı deyil, həm də xalqın öz xilaskarına inamının və sabit, güclü dövlətə doğru atılan qətiyyətli addımın ifadəsidir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, bu illər heç də arzuolunan sabitlik və inkişafla müşayiət olunmadı. AXC-Müsavat cütlüyünün səriştəsiz və avantürist idarəçiliyi ölkəni dərin siyasi, iqtisadi və sosial böhranlara sürüklədi. Dövlətçilik ənənələri pozuldu, silahlı dəstələrin hökmranlığı, regionlarda separatizmin baş qaldırması, cəbhədə ardıcıl məğlubiyyətlər və əhalinin səfalət içində yaşaması Azərbaycanı vətəndaş müharibəsi və parçalanma təhlükəsi ilə üzüzə qoydu. Belə bir ağır və taleyüklü zamanda xalqın səsi yalnız bir ünvanı çağırdı – Ulu öndər Heydər Əliyevi. Çünki Azərbaycan cəmiyyətində artıq belə bir ümumi fikir formalaşmışdı: bu ölkəni böhrandan çıxara biləcək, xalqı arxasınca aparmağa qadir yeganə lider yalnız Ulu Öndər Heydər Əliyevdir. Ulu Öndərin 1993-cü ilin iyununda Bakıya qayıdışı və Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ölkədə yeni bir mərhələnin başlanğıcı oldu. Qısa müddət ərzində dövlətçiliyin əsasları möhkəmləndirildi, ictimai-siyasi sabitlik təmin olundu, ordu quruculuğuna start verildi, Azərbaycanın beynəlxalq mövqeyi bərpa edildi. Heydər Əliyevin siyasi uzaqgörənliyi, prinsipial mövqeyi və böyük idarəçilik təcrübəsi ölkəni anarxiyadan çıxarıb sabitliyə, sabitlikdən isə inkişaf və tərəqqi yoluna apardı. Ulu öndər Heydər Əliyev 1993-cü il oktyabr prezident seçkilərində xalqın mütləq əksəriyyətinin etimadını qazanması, onun xalqa verdiyi vəd – "Həyatımın qalan hissəsini xalqıma xidmətə həsr edəcəyəm" – siyasi iradəsinin, fədakarlığının və vətənə olan sədaqətinin sübutu idi. Bu baxımdan 15 İyun – Milli Qurtuluş Günü təkcə siyasi böhranın qarşısının alınması ilə deyil, həm də Azərbaycanın gələcəyinin xilası ilə əlamətdar oldu. Əgər Heydər Əliyevin qətiyyətli liderliyi olmasaydı, bu gün müstəqil Azərbaycan dövləti dünya siyasi xəritəsində yer almaya bilərdi. Bugünkü qüdrətli, sabit və inkişaf edən Azərbaycan dövlətinin təməlində məhz 15 İyun Qurtuluş Günü dayanır. Bu gün həm də dövlətçiliyin, xalq-iqtidar birliyinin və vətənə sədaqətin

(Ardı 5-ci səhifədə).

# Dövlət qulluqçularının peşə bayramı

23 iyun 2025-ci il tarixdə dövlət qulluqçularının peşə bayramı ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək, Ulu Öndərə öz ehtiramlarını bildirmişlər. Qəbələ Rayon icra Hakimiyyətinin akt zalında davam edən tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluqçularının rolundan, bu sahədə aparılan islahatlardan danışmış, dövlət qulluqçularının peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə zəruri addımların atıldığını qeyd edərək bütün dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik etmişdir. Sonda bir qrup dövlət qulluqçusu dövlət qulluğunda səmərəli fəaliyyətinə görə rayon icra hakimiyyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.



# "Gənc xilasedici" Beynəlxalq yarışının açılışı

Qəbələdə Fövqəladə Hallar Nazirliyi tərəfindən təşkil olunan FHN-in yaranmasının 20 illiyinə həsr olunmuş "Gənc xilasedici" Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" Ümumrespublika birinciliyinin final mərhələsinə start verilib. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Elm və Təhsil, Gənclər və İdman nazirliklərinin təşkilatçılığı, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən bu ilki yarışlarda Azərbaycanla yanaşı Rusiya, Qazaxıstan, Özbəkistan və Belarusdan olan komandalar da iştirak edir. Tədbirdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirinin müavini general-mayor Adil Abdullayev və Nazirliyin məsul əməkdaşları, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, yerli Elm və Təhsil idarəsinin, hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri iştirak ediblər. Tədbirə Azərbaycan Respublikasının Dövlət bayrağının meydana gətirilməsi və Dövlət himninin səsləndirilməsi ilə start verilib. Tədbirdə çıxış edən fövqəladə hallar nazirinin müavini general-mayor Adil Abdullayev keçirilən yarışların yetişməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, məktəblilərdə fövqəladə hallarla mübarizə sahəsində əməli vərdişlərin formalaşması və bu istiqamətdə beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Nazir müavini xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi dövlət gənclər siyasətinin bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini xatırladıb, bu siyasət nəticəsində Vətəninə, dövlətinə bağlı, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik gənc nəslin formalaşdığını qeyd edib. Daha sonra çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yarışların əhəmiyyətindən danışıb, belə müsabiqələrin keçirilməsinin yeniyetmə və gənclərin fövqəladə hallarla mübarizə sahəsində yeni təcrübələr əldə etməsi, həmçinin bu sahədə beynəlxalq əməkdaşlıq üçün mühüm rol oynadığını vurğulayıb və bu ilki yarışların əlamətdar tarix olan Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranmasının 20 illiyinə həsr olunduğunu bildirərək iştirakçılara uğurlar arzulayb. Tədbirin Təşkilat komitəsinin üzvü Məhbubə Mustafayeva yarışların əhəmiyyətindən ətraflı bəhs edərək, bütün komandalara müvəffəqiyyətlər arzulayıb. Sonra yarışlara qatılmış komandaların təntənəli keçidi baş tutub. Bu ilki Ümumrespublika birinciliyinin final mərhələsində 12 rayon və şəhərin komandaları birincilik uğrunda mübarizə aparacaqlar. Həmçinin, respublikanın müxtəlif bölgələrindən olan şəhid ailələrinin üzvləri bu ilki yarışa dəvət olunub. Onların asudə vaxtlarının səmərəli təşkil olunması üçün əlavə proqramların keçirilməsi nəzərdə tutulur.

Yarışlar iyunun 29-na kimi davam edəcək.



# Hesabat konfransı

Qəbələ Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilmişdir. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildirmişlər. "Qəbələ Garden" hoteldə keçirilən konfransda ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ağsaqqalların ölkəmizin ictimai-siyasi həyatında rolundan, yaşlı nəslin nümayəndələrinə göstərilən dövlət qayğısından danışmış, gənclərin dövlətə, xalqa sədaqət ruhunda, zərərli təsirlərdən uzaq və sağlam əsaslar üzərində tərbiyəsi işində ağsaqqallara hər zaman böyük ehtiyac olduğunu diqqətə çatdırmışdır. Rayon Ağsaqqallar şurasının sədri Mehman İsmayılov illik fəaliyyətləri və qarşıda duran məsələlər barədə məlumat vermiş, Qəbələdə şəhid ailələrinin, qazilərin daim diqqət mərkəzində saxlanıldığını və ağsaqqalların da bu nəcib işlərdə yaxından iştirak etdiyini vurğulamışdır. Çıxış edənlər gənc nəslin formalaşmasında, vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində ağsaqqalların böyük rolu olduğunu qeyd etmiş, ölkəmizdə aparılan abadlıq-quruculuq işlərindən, həyata keçirilən qlobal layihələrdən danışmış, ictimai işlərdə bundan sonra da yaxından iştirak edəcəklərini vurğulayaraq, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər. Respublika Ağsaqqallar Şurasının sədr müavini, professor Vahid Novruzov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətimizin bugünkü inkişafında ağsaqqal və ziyalılarımızın rolundan söz açmış, Qəbələ Rayon Ağsaqqallar Şurasının bir illik fəaliyyətinin qənaətbəxş qiymətləndirildiyini qeyd etmişdir. Sonda rayonun ictimai işlərində fəal iştirakına görə bir qrup ağsaqqala rayon icra hakimiyyətinin fəxri fərmanı təqdim edilmişdir.






